

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 139 (23.551)

25 avqust 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Faiq Qürbətovu Biləsuvar Rayon İcra Hakimiyyətinin, Elmir Bağırovu isə Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı videoqəbulda çıxış edərək yeni təyin olunan icra başçılarının bu etimadı öz işləri ilə doğruldacaqlarına əminliyini bildirib. Prezident İlham Əliyev rayonlarda vəziyyətin düzgün təhlil edilməsi, mövcud olan nöqsanların, çatışmazlıqların araşdırılması, insanları narahat edən problemlərin öz həllini tapması ilə bağlı tapşırıqlar verib.

Azərbaycan Respublikasının Prezidenti Biləsuvar və Saatlı rayonlarında regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində dövlət xətti ilə və dövlət vəsaiti hesabına görülən işlərdən, bütün infrastruktur layihələrin uğurla icra edilməsindən, yeni təyin olunan icra başçılarının üzərinə düşən vəzifələrdən də danışıb.

Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov və Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov göstərilən yüksək diqqət və etimada görə dövlət başçısına minnətdarlıq edib, həyata keçiriləcək işlərdə yorulmadan çalışacaqlarını bildiriblər.

Prezident İlham Əliyev onlara fəaliyyətlərində uğurlar arzulayıb.



## "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı bəzi tədbirlər haqqında
## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin
## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) adlandırılsın.

2. Müəyyən edilsin ki, Cəmiyyət kənd təsərrüfatı məhsulları istehsalçılarının, lizinq yolu ilə satılması daxil olmaqla, qanunla müəyyən edilmiş qaydada kənd təsərrüfatı istehsal vasitələri (kənd təsərrüfatı texnikası, texnoloji avadanlıq, o cümlədən suvarma sistemləri dəsti və avadanlığı, aqrokimyəvi maddələr, bitki mühafizəsi vasitələri, sertifikatlı toxum və ting) ilə təmin edilməsini, aqrotexniki xidmətlər göstərilməsini və bu sahədə fəaliyyətin təşkilini həyata keçirən hüquqi şəxsdir.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:
3.1. Cəmiyyətin yeni nizamnaməsini təsdiq etsin;
3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 avqust 2020-ci il*

## "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 8-ci Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib





Muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər müdafiə təhlükəsizliyini tam təmin etmişdir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvandakı ordu, birləşmə və hissələri mühüm təşkilatlanma və inkişaf yolu keçmiş, xidmət günün tələbləri səviyyəsində qurulmuşdur. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında da maddi-texniki baza xeyli gücləndirilmiş, sərhəd xidmətində geniş quruculuq işləri aparılmış, infrastruktur yenilənmiş, şəxsi heyətin peşəkarlığı artırılmışdır.

Avqustun 22-də – "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaranmasının ildönümündə 8-ci Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev Ali Məclisin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, zastavada tikinti işlərinə 2019-cu ildə başlanılmışdır. Kompleksə qərargah, sərhədçi ailələri üçün yaşayış binaları, eləcə də digər xidməti və yardımçı binalar daxildir. İkimərtəbəli qərargah binasında 48 yerlik yataqxana, 32 yerlik yeməkxana, anbar və iş otaqları yerləşir. Yaşayış binasında hər biri 2 otaqdan ibarət 8 mənzil vardır. Mənzillər təmir olunmuş, lazımi məişət əşyaları və mebel dəstləri qoyulmuş, istilik sistemi ilə təchiz edilmişdir. Ərazidə hamam-camaşırxana, qazanxana, əşya, ərzaq, tərəvəz, yanacaq-sürtkü materialları və silah anbarları, avtomobillər üçün 2 saxlanc yeri tikilmişdir.



Eyni zamanda xidməti heyvanların saxlanması üçün yardımçı bina istifadəyə verilmiş, vertolyot meydançası yaradılmış və müşahidə qülləsi təmir edilmişdir.

1-ci Sərhəd Komendantlığının sərhəd zastavaları tam şəkildə videonəzarət sistemi ilə təchiz olunmuş, HD görüntü keyfiyyətinə malik 8 idarəolunan və 21 sabit kamera quraşdırılmışdır. 11 sabit və 2 idarəolunan kamera 8-ci Sərhəd Zastavasının xidmət sahəsini əhatə edir. Çəkilən videokadrlar uzun müddət sistemin yaddaşında saxlanılır.

Ali Məclisin Sədri sərhədçi ailələri ilə görüşmüş, onları xidməti yaşayış binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Xidməti ərazidə istifadəyə verilən yaşayış binasında zabit ailələri yaşayacaqlar. Zastava üçün istifadəyə verilən əsgəri-məişət kompleksində və yeni yaşayış binasında hərtərəfli şərait vardır. Yeni yaşayış kompleksinin istifadəyə verilməsi ailələrin rahatlığının təmin olunması ilə yanaşı, eyni zamanda xidmətin də uğurlu təşkilinə imkan verəcəkdir.

Ali Məclisin Sədri sərhədçi uşaqlarına hədiyyələr təqdim etmişdir.

Sərhədçi ailələri adından minnətdarlıq edən Heyran Əliyeva demişdir: "Hərbçi ailələrinə göstərilən yüksək qayğı sayəsində ailə-məişət şəraitimiz xeyli yaxşılaşdırılıb. Bu gün yeni yaşayış binası istifadəmizə verilir. Biz sərhədçi ailələri bunun sevincini yaşayır və dövlətimizlə qürur duyuruq".

Sonra şəxsi heyətlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərhədçiləri salamlamış, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaranmasının ildönümü və

Ardı 2-ci səhifədə





8-ci Sərhəd Zastavasının yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətini, sərhədçi ailələrini təbrik etmiş, sərhəd zastavasının yeni kompleksinin qurulmasında əməyi olanlara təşəkkürünü bildirmişdir.

Ali Məclisin Sədri demişdir: Ümummilli liderimiz Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda həyata keçirdiyi ordu quruculuğu tədbirləri sırasında sərhəd qoşunlarının formalaşması və inkişafı mühüm yer tutur. 1992-ci il avqustun 22-də ulu öndərin rəhbərliyi ilə Naxçıvandakı sərhəd dəstəsində müstəqil Azərbaycanın üçrəngli bayrağı qaldırılmış və bununla da ilk milli sərhəd dəstəsinin təməli qoyulmuşdur. 1992-ci



il sentyabrın 19-da isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi “Naxçıvan Muxtar Respublikasının müdafiəsi və sərhədlərinin qorunmasının təşkili haqqında” Qərar qəbul etmiş, bu qərardan 10 gün sonra – sentyabrın 29-da Naxçıvandakı 41-ci sərhəd dəstəsi ləğv olunmuş və onun funksiyaları, bütün hərbi və təsərrüfat əmlakı 1-ci sərhəd dəstəsinə təhvil verilmişdir. Ümummilli liderimiz Heydər Əliyev bu barədə demişdir: ***“Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədləri on illər boyu rus qoşunları tərəfindən qorunmuşdur. Biz keçmiş Sovetlər İttifaqının, sonra isə Rusiyanın 41-ci Sərhəd qoşunları hissəsinin buradan tamamilə çıxıb getməsinə nail olduq və Azərbaycanda ilk dəfə olaraq milli sərhəd qoşunlarının 1-ci dəstəsi yaradıldı. Bütün bunlar tarixi hadisələrdir və nəinki bugünkü, hətta gələcək nəsillər tərəfindən layiqincə qiymətləndirilməlidir”.***

Ali Məclisin Sədri demişdir: Ümummilli liderimizin ali hakimiyyətə qayıdışından sonra Azərbaycan Silahlı Qüvvələri tam təşkilatlanma və inkişaf yolu keçmiş, ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında nümunəvi və peşəkar sərhəd qüvvələri formalaşmışdır. Dahi şəxsiyyətin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq fərmanları ilə 2004-cü il yanvarın 14-də Naxçıvan Sərhəd Dəstəsinin əsasında “Naxçıvan” Sərhəd Diviziyası, 2015-ci il avqustun 17-də isə “Naxçıvan” Sərhəd Diviziyasının bazasında “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası yaradılmış, vəzifə və səlahiyyətlər artırılmışdır.

Qeyd olunmuşdur ki, bu gün muxtar respublikada sərhədlərin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoymuşdur. Ötən dövrdə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 14 sərhəd zastavası, eləcə də 2 sərhəd komendantlığı üçün yeni yaşayış və xidmət kompleksləri istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmiş, sərhədçilərin xidmət və məişət şəraiti yaxşılaşdırılmışdır. Eyni zamanda “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının Naxçıvan şəhərindəki hərbi şəhərciyində və zastavalarda sərhədçi ailələri üçün xidməti yaşayış binaları tikilmiş, mövcud binalar yenidən qurulmuşdur. Bu illər ərzində “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının inkişafı təkcə maddi-texniki bazanın gücləndirilməsi ilə məhdudlaşmamış, diviziyanın təşkilati cəhətdən formalaşması da diqqətdə saxlanılmışdır. Qərargahın, sərhəd komendantlıqlarının və zastavaların, çevik hərəkət taborunun ştat sayı xidmət funksiyalarına uyğun artırılmış, döyüş hazırlığı bölməsi, təlim-tədris mərkəzi, zenit artilleriya və mühəndis-istehkam bölükləri, 2-ci sərhəd komendantlığı və onun tərkibində sahil mühafizə qrupu yaradılmış, xidmət günün tələbləri səviyyəsində qurulmuşdur.

“Sərhəd ölkə üçün vacib sahə, onu qorumaq isə şərəfli işdir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti bundan sonra da hərbi intizama ciddi əməl etməli, sərhəd nəzarəti və xidməti fəaliyyət günün tələbləri səviyyəsində qurulmalı, hərbi qulluqçuların peşəkarlığı artırılmalıdır. Sərhədçilər sərhədlərin mühafizəsi ilə yanaşı, həm də narkotik maddələrin və silah-sursatın qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı da mübarizədə sayıqlıq göstərməli, əməliyyat şəraiti daim nəzarətdə saxlanılmalıdır. Sərhəd hər bir ölkənin müstəqillik rəmzidir. Sərhədləri etibarlı qorunan ölkədə inkişaf və sabitlik də davamlı olur. “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti də Azərbaycan Respublikasının muxtar respublikadakı 234 kilometrlik sərhəd ərazisini etibarlı mühafizə edir.

Ali Məclisin Sədri xidməti nümunəvi təşkil etdiklərinə görə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətinə təşəkkürünü bildirmiş, çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***“Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlayır. Biz elə etməliyik ki, sərhədlərimiz tam şəkildə qorunsun”.***

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev çıxış edərək demişdir: “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının keçdiyi inkişaf yolu, xidmətin günün tələbləri səviyyəsində



qurulması, eləcə də 8-ci Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsi yaradılan şəraitin və görülən işlərin nəticəsidir. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər diviziyanın maddi-texniki bazasını möhkəmləndirmiş, hərbi qulluqçuların xidmət və məişət şəraiti xeyli yaxşılaşmışdır. Niyaməddin Tağıyev yaradılan şəraitə görə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Şəxsi heyət “Hamı bir nəfər, bir nəfər hamı üçün!” şüarını səsləndirmişdir.

Sonra Azərbaycan Respublikasının medallarının təqdimatı olmuşdur. Bildirilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 avqust tarixli Sərəncamına əsasən “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının zabitləri “İgidliyə görə” və “Hərbi xidmətlərə görə” medalları ilə təltif olunmuşlar.

Ali Məclisin Sədri Azərbaycan Respublikasının medallarını təqdim etmişdir.

Təltif olunan zabitlərdən Rauf Mirzəliyev demişdir: “15 ildir, Naxçıvan Qarnizonunda xidmət edirəm. Bu müddət ərzində ordu quruculuğuna göstərilən diqqət və qayğı hərbçilərin xidmətinə öz müsbət təsirini göstərmişdir. Mən və yoldaşlarım bu yüksək dövlət təltifinə görə minnətdarlığımızı bildirir və söz veririk ki, bundan sonra da dövlət sərhəddinin etibarlı mühafizəsini təmin edəcək, Vətənimizə ləyaqətlə xidmət edəcəyik”.

Əsgər Fariz Əlizadə minnətdarlıq edərək demişdir: “Vətən sərhəddən başlanır. Sərhədlərimizin mühafizəsi üçün muxtar respublikamızda yaradılan hərtərəfli şərait məsuliyyətimizi daha da artırır. Şəxsi heyətin yaşayışı, qidalanması və xidməti üçün bütün imkanlar var. Çalışacağıq ki, mövcud şəraitdən düzgün istifadə edək”.

Ali Məclisin Sədri şəxsi heyətlə xatirə şəkli çəkdirmişdir.

Zastavada nəzarət-buraxılış məntəqəsi, sıra meydanı, idman şəhərciyi, təlim meydançası, sərhədçi ailələri və şəxsi heyət üçün istirahət və əyləncə parkı, nəzarət-buraxılış məntəqəsi yaradılmışdır. Ərazidə 2 subartezian quyusu qazılmış, sutəmizləyici qurğu, 250 kilovoltluq transformator və generator quraşdırılmış, kanalizasiya xətti çəkilmişdir. 4 hektar sahədə abadlıq işləri aparılmış, 2 minə yaxın ting və gül kolu əkilmiş, sərhəd zastavasına 2100 metr məsafədən yol çəkilmişdir.

Həmin gün “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına “NİVA” markalı iki xidməti avtomobil təqdim olunmuşdur.

Ali Məclisin Sədri yaradılan şəraitə uyğun xidmətin təşkili ilə bağlı tapşırıqlar vermişdir.

Gətirilmiş ərzaq məhsulları zastavanın anbarına təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Avtomobil yollarında hərəkətin intensivliyinə müntəzəm nəzarət olunacaq

Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən kollegiya iclasını agentliyin direktoru Bəhruz Əsgərov açıb. Bildirib ki, avtomobil yollarında tələb olunan təmir-tikinti işlərinin aparılması və qartəmizləyən texnikaların işlək vəziyyətdə olması təmin edilməli, qum ehtiyatı tədarük olunmalıdır. Həmçinin leysan yağışları zamanı və soyuq qış mövsümündə avtomobil yollarında hərəkətin intensivliyinə nail olunması məqsədilə bütün texnikalara baxış keçirilməli, avtomaşınlar üçün zəncir, avtoqreyderlər üçün bıçaq tədarük edilməlidir.



Həmçinin fəhlə və mexanizatorlar mövsümlə əlaqədar iş geyimləri ilə təmin olunmalıdırlar.

Diqqətə çatdırılıb ki, ümumilikdə, 11 avtoqreyder, 31 özüyükünüboşaldan, 2 qartəmizləyən, 1 qarsovuran, 1 qumsəpən avtomaşın, 9 buldozer, 9 ekskavator, 6 yükləyici ekskavator və 5 avtoyükləyicinin muxtar respublikamızın ayrı-ayrı rayonlarının, ucqar dağ və sərhəd kəndlərinin avtomobil yollarında yarana biləcək hər hansı bir maneənin vaxtında aradan qaldırılması üçün tam hazır vəziyyətə gətirilməsi planlaşdırılıb. Eyni zamanda avtomobil yollarının buzdan təmizlənməsində mühüm rol oynayan qum tədarükü də diqqət mərkəzində saxlanılır. Ötən ildən 500 kubmetr ehtiyat yaradılıb və əlavə olaraq Şorsu massivindən xammal daşınaraq Naxçıvan və Şərur Asfalt-Beton zavodlarında qurulmuş qum-çınqıl karxanalarında üyüdülərək 1500 kubmetr ehtiyat yaradılması nəzərdə tutulur.

Vurğulanıb ki, ucqar dağ kəndlərində hərəkətin fasiləsizliyinin təmin edilməsi də diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə həmin yaşayış məntəqələrində buldozer və traktorların işləməsi, bu texnikalar üçün yanacaq-sürtkü materialları ehtiyatı yaradılması nəzərdə tutulub.

Sonra çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Tanınmış professor və Naxçıvan ədəbi mühiti

## (Professor Hüseyn Həşimlinin 55 yaşına sözardı)

*Görkəmli ədəbiyyatşünas, Əməkdar elm xadimi, professor Hüseyn Həşimli (1965-2020) 30 ildən çox ali təhsil aldığı elm məbədgahında – Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərib. O, 2019-cu ilin noyabr ayından ömrünün sonunadək AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini işləyib. Professor otuza yaxın kitabın və monoqrafiyanın, üç yüz qırxdan çox elmi, yüzlərlə publisistik məqalənin müəllifi idi.*

Elm fədaisi olan Hüseyn müəllimin maraq və mövzu dairəsi çox geniş idi. Ədəbiyyatşünaslığımızda sentimentalizm ədəbi cərəyanı, XX əsr Azərbaycan ədəbiyyatında yaranan sonet, terset kimi yeni lirik janrlar, mənsur şeirimizin yaranma tarixi və inkişaf istiqamətləri, Avropa lirik janrlarının Azərbaycan ədəbiyyatında tətbiqi məsələləri görkəmli elm xadiminin tədqiq etdiyi əsas problemlərdən ancaq bir qismi idi.

Professor Hüseyn Həşimli, eyni zamanda doğulduğu torpağa varlığı ilə bağlı olan bir elm adamı idi. Ona görə o, müstəqilliyimizin yaratdığı imkanlar sayəsində Naxçıvan ədəbi mühitinin inkişaf yolları, bədii yaradıcılığın əsas istiqamətləri, mövzu rəngarəngliyi məsələlərini öyrənmək istiqamətində arxivlərdən, yüz ildən artıq bir dövrün mətbuatından çoxsaylı və müxtəlif səpkili materiallar toplamış, ədəbi nümunələr əsasında ədəbiyyatşünaslıq məsələlərini tədqiq etməklə ciddi şəkildə məşğul olmuşdur. Hüseyn Həşimlinin Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndəsinin, deməkl olar ki, ədəbi irsi öyrənilməmiş Ələkbər Qərib Naxçıvanlının yaradıcılığı haqqında yazdığı irihəcmli tədqiqat əsəri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2020-ci ilin nəşr planına daxil edilmiş və dövlətin diqqət və qayğısı ilə bu tədqiqat işi yaxın vaxtlarda kitab şəklində işıq üzü görəcəkdir.

Professor Hüseyn Həşimlinin doktorluq dissertasiyası "Azərbaycan ədəbiyyatında Avropa mənşəli lirik janrlar" adlanır (2011). Bu dissertasiyada ədəbiyyatımızdakı Avropa mənşəli marş, sonet və terset kimi şeir formalarının poetik özəllikləri, dünya ədəbiyyatında mövqeyi, poeziyamızda təşəkkülü, inkişaf mərhələləri, əsas nümunələri, ideya-sənətkarlıq axtarışları geniş şəkildə araşdırılmışdır. Bu kontekstdə müəllif Naxçıvan ədəbi mühitinin Hüseyn Cavid, Adil Babayev kimi görkəmli nümayəndələrinin yaradıcılığında Avropa mənşəli lirik janrların istifadə məsələlərinə xüsusi diqqət yetirmiş, hətta bu baxımdan Hüseyn Cavid lirikasına ayrıca monoqrafiya həsr etmişdir. Həmin dissertasiya əsasında nəşr edilmiş irihəcmli "Azərbaycan poeziyasında sonet və tersetlər" adlı monoqrafiyasında müəllif XX əsrin 60-cı illərində Azərbaycan poeziyasında sonet janrının yüksəliş yoluna qədəm qoyduğunu, janrın kamilləşmə və kütləviləşmə mərhələsinə başladığını qeyd edirdi.



Görkəmli ədəbiyyatşünas XX əsrin əvvəllərində fəaliyyət göstərmiş naxçıvanlı qələm sahiblərinin ədəbi irsinin öyrənilməsi işində böyük əmək sərf etmişdir. Onun belə araşdırmalarının bir bəhrəsi də "Naxçıvan yazıçıları "Məktəb" jurnalında" adlı monoqrafiyadır. 142 səhifəlik bu monoqrafiya 2019-cu ildə işıq üzü görmüşdür. Məlumdur ki,"Məktəb" jurnalı 1911-1920-ci illər arasında bəzi fasilələrlə nəşr edilmiş bir mətbuat orqanı olub. Həşimli həmin jurnalda iştirak etmiş 4 naxçıvanlı yazıçıdan – Hüseyn Cavid, Məhəmmədəli Sidqi, Əli Səbri Qasımov və Ələkbər Qərib Naxçıvanlıdan bəhs etmiş, onların burada çap olunmuş əsərlərinin mətnini vermiş və həmin əsərlər haqqında araşdırma aparmışdır. Görkəmli maarifçi Məhəmmədtağı Sidqinin oğlu Məhəmmədəli Sidqinin 1914-1915-ci illərdə adıçəkilən jurnalda dərc olunmuş yeddi pedaqoji hekayəsi ilk dəfə Hüseyn Həşimli tərəfindən bu kitaba salınmışdır. Yeri gəlmişkən qeyd edək ki, görkəmli ədəbiyyatşünas Naxçıvan ədəbi mühitinin bu tanınmış nümayəndəsinin bədii-publisistik irsinin lazımınca öyrənilmədiyini nəzərə alaraq gərgin elmi axtarışlar sayəsində onu toplamış və nəşrinə nail olmuşdur. Fədakar alim 2014-cü ildə 1919-cu ildə cəmi 14 nömrəsi işıq üzü görmüş "Şeypur" jurnalındakı bütün materialları ayrıca kitab halında nəşr etdirmişdir. Onun bu mövzuda 2014-cü ildə "Məhəmmədəli Sidqi və "Şeypur" jurnalı" və 2017-ci ildə isə "Şeypur" jurnalı və ədəbi-tarixi həqiqətlər" adlı iki monoqrafiyaları da işıq üzü görmüşdür. Bu monoqrafiyalarda Məhəmmədəli Sidqinin həyat və yaradıcılığı haqqında geniş şəkildə məlumat verilmişdir.

Professor Hüseyn Həşimlinin "Naxçıvanlı yazıçılar "Məktəb" jurnalında" monoqrafiyasında yazıçı Ələkbər Qərib – Naxçıvan ədəbi mühitinin bu tədqiqat olunmamış nümayəndəsi haqqında daha geniş məlumat vermişdir. Müəllif "Məktəb" jurnalında dərc olunmuş (21 aprel 1913) "Bacı və qardaş" hekayəsinin məzmununu vermiş və əsəri təhlil etmiş, mətnini də kitaba daxil etməyi unutmamışdır. Professor görkəmli ədəbiyyatşünas – alim adıçəkilən həmyerlimizin bədii irsindən bir neçə nümunəni də mətbuatda nəşr etdirməyə müvəffəq olmuş, onun Ə.Q.Naxçıvanlının tərcüməçilik fəaliyyətini tədqiq edən daha bir məqaləsi də dərc olunmuşdur.

"Naxçıvanlı yazıçılar "Məktəb" jurnalında" kitabında tədqiqata cəlb edilən müəlliflərdən biri də Əli Səbri Qasımovdur. Alim bu kitabda Ə.S.Qasımovun L.N.Tolstoydan tərcümə etdiyi "Kəndli və su adamı" hekayəsindən bəhs etmiş və onun mətnini də vermişdir. Alim ədibin ustalıqla tərcümə etdiyi rus ədibi Dmitriyevanın "Balaca və Xallı" hekayəsini də təhlilə cəlb etmişdir. Qeyd etmək lazımdır ki, professor Hüseyn Həşimlinin bundan əlavə, Naxçıvan ədəbi mühitinin bu görkəmli yetirməsi haqqında iki kitabı da nəşr olunmuşdur.

Üzərində bir qədər geniş dayanmaq istədiyimiz görkəmli ziyalının çoxşaxəli fəaliyyətinin, zəngin yaradıcılığının sistemli, əhatəli şəkildə öyrənilmədiyini nəzərə alan mərhum professor vəfatından az əvvəl uzunmüddətli araşdırmalarının nəticəsi olaraq 232 səhifədən ibarət "Əli Səbri Qasımov: ömür yolu və yaradıcılığı" adlı sanballı bir monoqrafiya nəşr etdirmişdir.

Monoqrafiyanın "Şərəfli ömür yolu" adlanan ilk fəslində yazıçının 1892-ci ildə Naxçıvandan başlanıb 1983-cü ildə Bakıda tamamlanan doxsan bir illik həyatının əsas bioqrafik faktları, mərhələləri, fəaliyyətinin başlıca istiqamətləri ardıcıllıq və dəqiqliklə nəzərə çatdırılmış, tədqiqatçı bir sıra maraqlı elmi-tarixi faktlar ortaya qoya bilmişdir. Müəllif onun sovet dövründəki məşəqqətli taleyini, stalinizm dönəmində dəfələrlə həbsə alınmasını, ömrünün on səkkiz ilini həbs və sürgünlərdə keçirməsini, 1950-ci illərin ortalarından sonrakı fəaliyyətini və digər məsələləri ilk dəfə əsaslı şəkildə araşdırmışdır.

"Əli Səbri Qasımovun bədii yaradıcılığı" adlanan ikinci fəsildə yazıçının müxtəlif vaxtlarda yazdığı oxunaqlı nəsr əsərləri tədqiqata cəlb olunmuşdur. Onun hələ tələbə ikən, 1912-ci ildə çap etdirdiyi "Şəbi-hicran, yaxud müsibəti-Şadi" povesti hərtərəfli şəkildə araşdırılmışdır. Onu da demək yerinə düşər ki, yazıçının sonralar kitablarında yer almayan bu əsərini monoqrafiya müəllifi bir neçə il bundan əvvəl nəşr etdirərək ilk dəfə müasir oxuculara çatdırmışdır. Əli Səbri yaradıcılığının ən qiymətli nümunələrindən olan "Solğun çiçək" romanı 1913-cü ildə qələmə alınsa da, indi də maraqla oxunur, ideya-bədii mükəmməlliyi ilə diqqəti çəkir. Həmin romanı da ilk dəfə əhatəli araşdırmaya cəlb edən ədəbiyyatşünas alim müxtəlif vaxtlarda ədəbi-tənqidi fikrin əsərə münasibəti barədə diqqətəlayiq faktları da aşkara çıxararaq dəyərləndirmişdir. Kitabda Əli Səbrinin qələmindən çıxmış "Qaraçılar", "Ümid işıqları", "Himayə", "Firuzun kədəri" kimi mükəmməl hekayələr də elmi-ədəbi təhlilə cəlb olunmuş, onların bir qismi həm də uşaq ədəbiyyatımızın səciyyəvi örnəkləri sırasında nəzərdən keçirilmişdir. Bütövlükdə, yazıçının roman, povest və hekayələri Azərbaycan sentimentalist ədəbiyyatının təşəkkülü və inkişafında, nəsrimizdə psixologizmin möhkəmlənməsində, ictimai məzmunun fərdi talelər timsalında təqdimində mühüm rol oynayan bədii nümunələr kimi öz elmi qiymətini almışdır.

1910-cu ildən mətbuata qədəm qoyan Əli Səbri Qasımov fəaliyyəti boyunca sosial-siyasi həyatın müxtəlif məsələlərinə, maarif, mədəniyyət, bədii yaradıcılıq, ədəbi dil problemlərinə dair dörd yüzdən çox məqalə yazaraq dərc etdirmişdir. 1920-ci ilədək çoxsaylı qəzet və jurnallarda çıxış edən publisistin sovet dövründə də bir sıra mətbuat orqanlarında məqalələri dərc olunmuşdur. Bütün bunlar görkəmli ədibin ədəbi-tənqidi və publisistik irsinin tədqiqinə həsr olunan üçüncü fəsildə özünün dolğun elmi qiymətini almışdır. Bu fəsildə də araşdırılan çoxsaylı materialların əksəriyyəti ilk dəfə elmi dövriyyəyə gətirilmişdir. Yazıçının müxtəlif vaxtlarda qələmə aldığı memuarlar, xatirat səpkili məqalələri də bir sıra tarixi hadisələri, sosial-mədəni prosesləri, ədibin müasiri olmuş görkəmli ziyalılarla bağlı maraqlı məqamları aydınlaşdırmaq baxımından əhəmiyyətli mənbələr kimi təhlilə cəlb edilmişdir.

Monoqrafiyanın sonuncu fəsli Əli Səbrinin tərcüməçilik fəaliyyətinə həsr olunmuşdur. Tədqiqatçı müəyyənləşdirmişdir ki, yazıçının ilk tərcümə kitabı 1911-ci ildə seminariya tələbəsi ikən rus ədibi A.P.Çexovun "Qız istəmək" adlı dramatik əsəridir. Bundan sonra o, L.N.Tolstoyun bir sıra əsərlərini dilimizə çevirmişdir. İstedadlı mütərcimin rus yazıçısı V.İ.Dmitriyevadan "Balaca və Xallı" adlı tərcümə-təbdili, həmçinin M.F.Çumandrin, P.P.Verşiqora kimi rus yazıçılarının, ingilis ədibi V.Şekspirin, hind yazıçısı R.Taqorun bəzi əsərlərini, gürcü ədəbiyyatından müxtəlif hekayələri, həmçinin çoxsaylı ictimai-siyasi, elmi-kütləvi, pedaqoji materialları Azərbaycan dilinə çevirməsi də maraqlı faktlardır. Ə.Səbri, həmçinin Azərbaycan ədəbiyyatının və filoloji fikrinin M.S.Ordubadi, Y.V.Çəmənzəminli, S.Şamilov, F.Qasımzadə kimi tanınmış nümayəndələrinin bəzi əsərlərini rus dilinə tərcümə etmişdir.

Bütövlükdə, professor Hüseyn Həşimlinin "Əli Səbri Qasımov: ömür yolu və yaradıcılığı" adlı monoqrafiyası həm də çoxşaxəli yaradıcılığı ilə xalqa, Vətənə ləyaqətlə xidmət göstərmiş unudulmaz ziyalıya həsr olunan dəyərli tədqiqat kimi mühüm əhəmiyyətə malikdir.

Xalq yazıçısı Hüseyn İbrahimovun bədii irsinin öyrənilməsində də professor Hüseyn Həşimlinin az əməyi olmamışdır. O, 1999-cu ildə böyük söz ustasının anadan olmasının 80 illiyi münasibətilə "Hüseyn İbrahimov – 80" kitabını tərtib və nəşr etdirmişdir. Bu kitabda yazıçı haqqında professorun "Realizmin genişlənən üfüqləri" adlı məqaləsi də çap olunmuşdur. Burada müəllif böyük yazıçının bədii yaradıcılığında tənqidi-realist cizgilərə nəzər salır, bu xüsusiyyətləri yazıçının yaradıcılığının ana xəttini təşkil etdiyini faktlarla əsaslandırır.

*Əməkdar elm xadimi, professor Hüseyn Həşimli iyun ayının 20-də həyata həmişəlik vida etsə də, onun çoxsaylı araşdırmaları, zəngin elmi irsi Azərbaycan ədəbiyyatşünaslıq elminin əvəzsiz nailiyyətləri kimi həmişəyaşardır. "Əli Səbri Qasımov: ömür yolu və yaradıcılığı" monoqrafiyası bu gün 55 yaşı tamam olan dəyərli elm xadiminin sağlığında nəşr etdirdiyi sonuncu əsərdir. Onun çapa hazır olan neçə-neçə sanballı əsəri vardır. Professor Hüseyn Həşimli onu sevənlərin qəlbində daim yaşayacaqdır. İnanırıq ki, bu məqalə görkəmli alimin çoxcəhətli yaradıcılığının öyrənilməsinə aid son söz olmayacaqdır. Görkəmli alimin elmi irsindən öyrənilməsi ədəbiyyatşünaslarımızın, Naxçıvan ədəbi mühiti tədqiqatçılarının qarşısında duran mühüm vəzifə kimi layiqincə yerinə yetiriləcək.*

**Əbülfəz QULİYEV**
**AMEA-nın müxbir üzvü, professor**

# Payız-qış mövsümünə hazırlıq məsələləri müzakirə olunub

*Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirəni cəmiyyətin sədri Yəhya Allahverdiyev açaraq məruzə edib.*



Bildirilib ki, muxtar respublikada əkinəyararlı torpaq sahələrinin su təminatını yaxşılaşdırmaq, su ehtiyatlarından səmərəli istifadə etməklə suvarılan sahələrin genişləndirilməsi, əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi üçün beton və torpaq kanallarda, ara arxlarda lildən təmizləmə işləri aparılıb, suvarma və yeni təzyiqli boru xətləri çəkilib, mövcud boru xətlərində təmir-bərpa işləri yerinə yetirilib. Torpaqların şoranlaşmasının qarşısının alınması və qrunt sularının səviyyəsinin aşağı salınması davam etdirilib, yaşıllıq ərazilərin suvarılması üçün yeni boru xətti çəkilib, mövcud xətlərdə təmir işləri görülüb.

Diqqətə çatdırılıb ki, rayon Meliorasiya və Su Təsərrüfatı idarələri tərəfindən əhalinin içməli su ilə təchizatının yaxşılaşdırılması üçün mövcud xətlər və hidrotexniki qurğular, subartezian quyuları vaxtında təmir olunmalı, yeni su xətlərinin çəkilməsi davam etdirilməlidir. Çəkilmiş su xətlərində təzyiqin normada saxlanılması, qəzalara yol verilməməsi üçün profilaktik tədbirlər həyata keçirilməlidir. Baş vermiş qəza hallarının dərhal aradan qaldırılması üçün qəza briqadaları yaradılmalı, briqadaların operativ işi təmin olunmalıdır. Su xətlərinin, sayğacların donmasına qarşı tədbirlər görülməlidir.

Vurğulanıb ki, hazırlıq işləri vaxtında sona çatdırılmalı, su nasoslarına baxış keçirilməli, nasaz olan avadanlıqlar yenisi ilə əvəz edilməli, kabel ötürücü kanallarda təmizlik işləri aparılmalıdır. Su nasoslarının payız qış mövsümündə normal işləməsi, fasiləsiz yol verilməməsi üçün sutəmizləyici avadanlıqların yerləşdiyi binaların qızdırılması, pəncərə və qapıların saz vəziyyətdə olması diqqətdə saxlanılmalıdır. Mövsüm başa çatdıqdan sonra su anbarlarına sugətirən kanallar lildən təmizlənməli, kanal və hidrotexniki qurğularda təmir-bərpa işləri yekunlaşdırılmalı, kanal və arxlarda suyun maneəsiz axını təmin edilməli, son illərdə tikilmiş qapalı suvarma şəbəkələrində sular boşaldılmalıdır.

Sonda məruzə ətrafında müzakirələr aparılıb.



"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilən iclası giriş sözü ilə açan direktor Mahir Əliyev bildirib ki, Culfa Lokomotiv Deposunda payız-qış mövsümündə istismar olunacaq 5 elektrovozun və 5 manevr-magistral teplovozun hərəkət və dartı hissələri müayinə olunub, onlarda, həmçinin 45 ədəd müxtəliftipli vaqonda cari və depo təmirləri aparılıb. Cari ilin payız-qış mövsümündə vaqon və lokomotivlərin normal və fasiləsiz istismarının təmin olunması məqsədilə qabaqlayıcı tədbirlər görülüb. İstilik sistemləri ilə təchiz edilmiş sərnişin vaqonlarının və aralıq stansiyalarda növbətçi otaqlarının qızdırılması üçün 18,4 ton daş kömür ehtiyatı yaradılıb, mövsüm ərəfəsində isə əlavə olaraq 60 ton kömürün alınıb gətirilməsi təmin ediləcəkdir.

Qeyd olunub ki, Naxçıvan stansiyası ərazisində sərnişin vaqonlarının yuyulması üçün məntəqənin tikintisi başa çatdırılaraq uzunluğu 50 poqonometr olan dəmir yolu çəkilib.

Vurğulanıb ki, xidməti ərazidəki baş və stansiya yollarına baxış keçirilib, yağış və leysan sularının maneəsiz ötürülməsi üçün bütün dağüstü kanallarda, körpü yataqlarında və beton borularda təmir işləri aparılaraq tullantılar təmizlənib. Defektoskop briqadası tərəfindən baş yollar, qəbul-göndərmə yolları və yoldaşıyan qurğular yoxlanılaraq nasazlıqlar bərpa edilib. Ordubad-Şərur sahəsində 625 ədəd yararsız şpal təzə ağac şpalla, 940 yararsız ağac şpal yarımyararlı ağac şpalla, 22 yararsız ağac şpal isə yarımyararlı dəmir-beton şpallarla əvəzləşdirilib. Uçurum gözlənilən yerlərdə təhlükəli daşların zərərsizləşdirilməsi təmin edilərək bütün qüsurlu rels bərkidiciləri dəyişdirilib, yolun plan və profil üzrə təlimata uyğun saxlanılması məqsədilə təkan və çarpaz yatmalar aradan qaldırılıb. Əlavə olaraq "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə Rusiya Federasiyasının "Şpalzavod" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 9600 ədəd təzə ağac şpalın alınmasına dair müqavilə bağlanılıb. Yaxın vaxtlarda ağac şpalların respublikamıza gətirilməsi təmin ediləcəkdir.

Bildirilib ki, istismarda olan güc, dartı və alçaldıcı transformatorlarda profilaktik təmir işlərinə başlanılıb.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

*Yaradıcılıq mərkəzi dedikdə gözlərimiz önündə istedadlı uşaqların bir araya gəlib öz məharətini göstərməkləri canlanır. Uşaqların maraq, meyil və bacarıqlarının, intellektual səviyyələrinin üzə çıxarılmasında, onların yaradıcılıq qabiliyyətlərinin inkişafında, fiziki cəhətdən sağlam böyüməlvalərində, fərdi yaradıcılıq potensiallarının ortaya qoyulmasında məktəbdənkənar müəssisələrin fəaliyyəti əlverişli hesab edilir.*

# Onlayn dərs məşğələlərinin real nəticələri

## Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi fəaliyyətini çoxşaxəli istiqamətlər üzrə qurub

Təhsil ekspertləri məktəbdənkənar müəssisələrin əsas fəaliyyət istiqamətlərini 3 qrupa bölürlər. Bura dərnək məşğələləri, mədəni-kütləvi tədbir, müsabiqə, idman yarışları və təlimati-metodik işlər daxildir. Təbii ki, biz də haqlı olaraq bu qrupa onlayn dərs məşğələlərini də əlavə edəcəyik. Pandemiya ilə əlaqədar əhatə dairəsini genişləndirən onlayn dərslər, məşğələlər bu gün uşaqların yaradıcılıqdan geri qalmaması üçün atılmış mühüm addım hesab edilir. Muxtar respublikamızda da məktəbdənkənar müəssisələr öz fəaliyyətlərini onlayn şəkildə davam etdirirlər.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi də onlayn dərslərdən yararlanan və fəaliyyətini günün tələbləri səviyyəsində qurmağı bacaran məktəbdənkənar müəssisələrdən biridir. Məlumat üçün deyim ki, 1979-cu ildə Naxçıvan şəhər pionerlər evi kimi yaradılan məktəbdənkənar müəssisə 2009-cu il mart ayının 19-dan etibarən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi adı ilə fəaliyyətini davam etdirir. Mərkəzin ulu öndərin adını daşıması burada çalışan kollektivin üzərinə böyük məsuliyyət qoyur, onları daha səylə çalışmağa sövq edir. Onu da xüsusilə vurğulamaq lazımdır ki, ***“Uşaqlar bizim gələcəyimizdir”*** – deyən, uşaqlara gələcəyin ümidi kimi baxan ümummilli lider Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində onlara böyük qayğı ilə yanaşıb. Məhz ulu öndərin rəhbərliyi ilə uşaq və yeniyetmələrin sağlam-düşüncəli, hərtərəfli biliyə malik yetişmələri yönündə bir sıra tədbirlər həyata keçirilib, fərman və sərəncamlar imzalanıb. Görkəmli dövlət xadiminin uşaqlarla bağlı müəyyən etdiyi siyasət bu gün muxtar respublikamızda, o cümlədən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin timsalında uğurla davam etdirilir.

Məktəbdənkənar müəssisənin qatıldığı ictimai xarakterli tədbirlər ailə, təhsil müəssisələri, ictimai təşkilatlar, yaradıcılıq birlikləri, cəmiyyətlər, fondlar, əmək kollektivləri ilə birlikdə aparılır.

Yaradıcılıq mərkəzində qrup məşğələləri və dərnəklər fəaliyyət göstərir. Dərsdənkənar dərnəklərin uğurlu nəticələri məktəblilərin yaradıcılıq uğurlarının üzə çıxmasında, onların



fəaliyyət istiqamətləri seçimində mühüm rol oynayır. Dərnəklərin profili şagirdlərin istəyinə uyğun olaraq müəyyənləşdirilir. Belə ki, burada müxtəlif sahələr üzrə dərnəklər təşkil olunub. 2019-cu ilin oktyabr ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən adıçəkilən mərkəzdə “Robotexnika”, “Memarlıq-dizayn”, “Mental aritmetik”, “Maty-plyus”, “Bədii gimnastika”, “Ebru sənəti”, “Məntiq”, “Dulusçuluq”, “Ağac üzərində oyma”, “Metal üzərində bədii döymə”, “Xalçaçılıq”, “Sürətli oxu”, “Qum sənəti” kimi innovativ dərnəklər yaradılıb. Bu dərnəklər uşaq və gənclərə məhdud fəaliyyətdən azad olub çoxnövlü dərnəklərdə özlərini sınamaq şansı verib, nəticədə, onların yeni yaradıcılıq potensialları üzə çıxıb.

Bəs bu gün həmin sahədə vəziyyət necədir? Pandemiya dövründə məktəbdənkənar müəssisə fəaliyyətini necə bərpa edir? Bu suallara cavab tapmaq üçün mərkəzin direktoru Rəşad Xudiyevlə həmsöhbət olduq. Öyrəndik ki, cari ilin ilk 6 ayı ərzində bütün onlayn tədbirlərdə uğurlu nəticələr əldə edilib. Mərkəz təkcə iki ay ərzində bir çox onlayn məşğələ ilə ictimaiyyətin marağına səbəb olub. Bu gün vəziyyətdən asılı olmayaraq, müəllim və şagird kollektivi işlərinə məsuliyyətlə yanaşır, iştirak etdikləri onlayn məşğələ, dərs və tədbirlər internet resurslarında nümayiş etdirilir. Onlayn tədbirlər nəticəsində izləyicilərin sayında artım, özlərində isə yaradıcılıq fəallığı müşahidə olunub. İyul və avqust ayları ərzində “Bədii toxuculuq”, “Mental aritmetik”, “Dulusçuluq”,“Dekorativ-tətbiqi sənət”, “Rəqs”, “Xalçaçılıq”, “Memarlıq-dizayn”, “Bacarıqlı əllər”, “Metal üzərində bədii döymə”, “Ebru sənəti” və sair dərnəklərin videoməlumatları, dərs məşğələləri, tanınmış şəxsiyyətlər və əlamətdar günlər haqqında hazırlanan videoçarxlar onlayn şəkildə ictimaiyyətə nümayiş etdirilib, bir çox məktəblilər internet resursları vasitəsilə belə məşğələlərdən faydalanıb. Bu yaxınlarda təşkil edilmiş onlayn sərgi də çox maraqla qarşılanıb. Sərgidə 100-ə yaxın əl işi nümayiş olunub. “Dulusçuluq”, “Xalçaçılıq”, “Ağac üzərində oyma”, “Ağac üzərində yandırma”, “Metal üzərində bədii döymə” dərnək üzvlərinin əl işlərindən ibarət onlayn sərgidə yeni yaradıcı təfəkkürün və bədii zövqün bəhrəsi olan maraqlı əl işləri nümayiş olunub.





Həmçinin 1 avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ilə əlaqədar şeir müsabiqəsi, “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan Nizami Gəncəvinin “Sirlər xəzinəsi” və Məhəmməd Tağı Sidqinin “Məktəb hekayələri” əsərlərinin müzakirələri təşkil edilib. Onlayn keçirilən esse müsabiqəsinin təşkili isə uşaqların təfəkkür potensiallarının üzə çıxmasında çox əhəmiyyətli rol oynayıb. “Instagram” səhifəsində təqdim olunan esselərdə uşaqların maraqlı düşüncə tərzi, fərqli yanaşması özünü göstərib.

Məşğələlərə muzeylərə onlayn ekskursiyalar da daxildir. Belə ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Muzeyinə, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə, Cəmşid Naxçıvanskinin ev-muzeyinə onlayn ekskursiyalar təşkil olunub.

Bütün sadalananlar məktəbdənkənar təhsilin fəaliyyətinin uğurlu nəticəsi olduğunu deməyə əsas verir. Məktəbdənkənar müəssisədə dərnəklərin fəaliyyətində, həqiqətən də, bir zamanlar hökm sürən o boşluqlar artıq istedadlı uşaqlarımızın çoxalması ilə əvəz olunub. Çünki dərnəklərin fəaliyyətinə dərnək rəhbərləri qədər valideynlər də, məktəblər də maraqlıdır. Bunun üçün qəbul edilmiş əsaslı proqramlar, onlayn dərs məşğələləri də real bəhrəsini verməkdədir.

✍ **Türkan HÜSEYNLİ**

# Əlahiddə Ümumqoşun Ordunun tankçıları peşəkarlıq nümayiş etdirirlər



Naxçıvan Qarnizonu Qoşunlarında yay tədris dövrünün planına uyğun olaraq bölmələr tərkibində təşkil olunan məşğələlərdə Əlahiddə Ümumqoşun Ordunun tankçıları peşəkarlıq nümayiş etdirirlər.

Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrinin Təlim-Tədris Mərkəzlərində quraşdırılmış xüsusi proqram təminatlı kompüterlərdə və müxtəlif məşq qurğularında şəxsi heyətin sürücülük və atəş üzrə bacarıqları təkmilləşdirilir. Tank bölmələri ilə keçirilən məşğələlərdə əsas diqqət şəxsi heyətin ərazinin çətin relyef və məhdudgörmə şəraitində texnikanı bacarıqla idarə etməsinə, döyüş sahəsində hədəfləri qısa zamanda məhv edərək döyüş tapşırığının müvəffəqiyyətlə icrasına yönəldilir.

Virtual təlim meydanında mərmi və yanacaq sərf etmədən qazanılan bacarıqlar səhra şəraitində təşkil olunan praktik məşğələlərdə yerinə yetirilmiş tapşırıqların icra vəziyyəti ilə qiymətləndirilir.

Hazırda tank birləşmələrində olduğu kimi, Naxçıvan Qarnizonu Qoşunlarının bütün birləşmə, hissə və bölmələrində həm virtual, həm də təlim mərkəzlərində praktik məşğələlər keçirilir.

**Kənan CƏLİLOV**

# Gənc şahmat müəllimləri arasında muxtar respublika birinciliyi keçirilib

Muxtar respublikada şahmatın kütləviliyinin artırılmasına və bu sahənin inkişafına yüksək qayğı göstərilir. Belə ki, şahmatın maddi-texniki bazası möhkəmləndirilib, Naxçıvan şəhərində Şahmat Mərkəzi, rayon mərkəzlərində yeni şahmat məktəbləri tikilib istifadəyə verilib. Muxtar respublikanın ümumtəhsil məktəblərində yaradılan şəraitdən səmərəli istifadə, təhsil müəssisələrinin bacarıqlı və bilikli müəllimlərlə təmin olunması daim diqqətdə saxlanılıb. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən sertifikasiyalarda uğurlu nəticə göstərən 487 müəllimə ümumtəhsil məktəblərində şahmat fənnini tədris etməsinə icazə hüququ verən sertifikat təqdim edilib.



Muxtar respublikada fəaliyyət göstərən təhsil müəssisələrində şahmatı tədris edən müəllimlər arasında müxtəlif kateqoriyalar üzrə şəhər və rayon birincilikləri ilə yanaşı, mütəmadi olaraq tempo yarışları, müxtəlif beynəlxalq yarışlar keçirilir. Dünən isə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasında məktəblərdə şahmat fənnini tədris edən gənc müəllimlər arasında muxtar respublika birinciliyi olub. Birinciliyin keçirilməsində məqsəd müəllimlər arasında intellektual idman növü olan şahmat oyununu təbliğ etmək, güclü şahmatçıları aşkara çıxarmaq, eyni zamanda müəllimlərin asudə vaxtlarını mənalı və səmərəli təşkil etmək idi. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası, Təhsil, Gənclər və İdman nazirlikləri, Gənclər Fondunun birgə təşkilatçılığı ilə keçirilən birincilikdə muxtar respublikadan 50 gənc müəllim iştirak edib.

Gərgin və maraqlı keçən birinciliyin yekun nəticələrinə görə kişi şahmatçılar arasında Əli Hüseynzadə (Kəngərli rayonu) I, Tural Zeynalov (Naxçıvan şəhəri) II, Samil Hüseynov (Sədərək rayonu) III yerə, qadın şahmatçılar arasında isə Lamiyə Məmmədova (Ordubad rayonu) I, Fəridə Şükürova (Naxçıvan şəhəri) II, Nərmin İsmayılova (Culfa rayonu) III yerə layiq görülüblər.

Qaliblər təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə təltif ediliblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# 1/4 final mərhələsinə start verilib



Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Azərbaycan Çimərlik Futbolu Federasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı, “Arazbet”in baş sponsorluğu ilə çimərlik futbolu üzrə muxtar respublika çempionatında növbəti oyunlar keçirilib.

Bu dəfə meydana 1/4 final mərhələsinə yüksələn komandalar çıxıb. Reqlamentə əsasən çempionatın bu mərhələsində ilk olaraq “B” qrupunu lider kimi başa vuran “Şahinlər” komandası “D” qrupunun ikincisi “Antiinhisar” komandası ilə üz-üzə gəlib. Görüş “Şahinlər” komandasının qələbəsi ilə başa çatıb – 9:1.

Sonra “Panter” və “Prestij” komandaları qarşılaşıb. Gərgin keçən oyunda qələbə qazanan tərəf “Panter” komandası olub – 8:4.

Qrup mərhələsini lider kimi başa vuran “Badamlı” komandası ilə “C” qrupunun ikincisi “Hava Limanı” komandasının görüşündə qapılara 7 top vurulub. 4:3 hesablı qələbə qazanan “Badamlı” komandası növbəti mərhələyə yüksəlib.

Qeyd edək ki, 1/4 final mərhələsinin son görüşü bu gün keçiriləcək. Saat $17^{00}$-da başlayacaq görüşdə meydana “Aralıq” və Naxçıvan Dövlət Universitetinin komandaları çıxacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Əliyev Mətləb Yusif oğluna “Naxçıvan” Universiteti tərəfindən verilmiş AA 043475 nömrəli diplom itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Qışlaqabbas kənd sakini Quliyev Həsən Səyyad oğlunun adına verilmiş JN-632[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Şahbazov Adil Nadir oğlunun adına olan 0900029282 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 626